MULTİKULTURALİZM ÇOXMƏDƏNİYYƏTLİ CƏMİYYƏTİN ƏSAS FAKTORU KİMİ

Ziya BƏHMƏNLİ*

Xülasə: Bu məqalə multikulturalizmin əsas xüsusiyyətləri onun etnik müxtəlifliklərə və onların daha yaxşı idarə edilməsində mühüm siyasi bir forma olmasından bəhs edilir. Müasir dövrümüzdə dünyanın əksər ölkələrində insanlar arasında həm iqtisadi, həm mədəni, həm də siyasi əlaqələr sürətlə inkişaf etdirilir. Buna görə də demək olar ki, dünyanın əksər ölkələrində müxtəlif mədəniyyətlərə və adət-ənənələrə mənsub olan insanlara rast gəlmək olar. Amma, bu ölkələrin hamısında həmin fərqli mədəniyyətlərə sahib olan insanlara eyni deyil, fərqli münasibətlər mövcuddur. Bu qeyd etdiyimiz müxtəliflikər tarixi prosesdə mühüm rol oynamış və həmin prosesin inkişafının nəticəsi kimi obyektiv xüsusiyyətə malik olmuşdur. Müxtəliflikər xalqların milli-mədəni dəyərlərini, mədəniyyətlərini xarakterizə etməklə onların dünyagörüşü və fəaliyyətlərinin əsas və aparıcı hissəsini təşkil etməklə yanaşı həmin xüsusiyyətlərə malik olan insanların həyatlarında aparıcı və müsbət rol oynayırlar. Elə buna görə də multikulturalizm anlayışı bir cəmiyyətdə müxtəlif mədəniyyətlərin mövcudluğunu, yəni çoxmədəniyyətlik sözünün sinonimi kimi ilk öncə irqi, etnik, dini və mədəni müxtəlifliklərі və bu müxtəlifliklərin əsasını təşkil edən dəyərləri özündə ehtiva edir. Müxtəlif ölkələrdə çoxmədəniyyətli cəmiyyətlərin tənzimlənməsində əsas və mühüm vasitələrdən biri multikulturalizmdir.

Açar Sözlər: *Multikulturalizm, Tolerantlıq, Müxtəlifliklər, Millət, Mədəniyyət.*

Multiculturalism as a Maın Factor of a Multicultural Society

Abstract: This article discusses the main features of multiculturalism and its important political form in ethnic diversity and their better management. In our modern era, economic, cultural and political relations between people are rapidly developing in most countries of the world. Therefore, it can be said that in most countries of the world, you can find nations belonging to different cultures and traditions. However, in all these countries, there are different attitudes towards people who have different cultures. These differences we mentioned played an important role in the historical process and had an objective characteristic as a result of the development of that process. By characterizing the national-cultural values and cultures of nations, diversities constitute the main and leading part of their outlook and activities, and play a leading and positive role in the lives of people who have those characteristics. That is why the concept of multiculturalism includes the presence of different cultures in a society, that is, as a synonym of the word multiculturalism, it includes first of all racial, ethnic, religious and cultural diversity and the values that form the basis of these diversity. Multiculturalism is one of the main and important means of regulating multicultural societies in different countries.

Key Words: *Multiculturalism, Tolerance, Diversity, Nation, Culture*.

Giriş

Multikulturalizm elmi ədəbiyyatda keçən əsrdən işlənməsinə baxmayaraq siyasi forma kimi mühüm əhəmiyyət kəsb edir. Belə ki, müxtəlif millətlər və onların mənsub olduğu adət-ənənələrin mühüm elementlərini özündə daşıyır. Multikulturalizm sosial hadisə kimi biruzə verir. Çünki müxtəlif mədəniyyətli insanlar cəmiyyətin məhsuludur. Bu müxtəliflikərə biz, ancaq, cəmiyyətdə təsadüf edirik. Multikulturalizm anlayış və termin olaraq müasir dövrdə daha çox XX əsrin 40- cı illərindən II Dünya müharibəsindən sonra işlənməyə başlandı. Belə ki, 1947-ci ildə Hindistanın İngiltərənin asılılığından ləğv edilməsindən sonra müstəqil olmuş dövlət konstitusiyasında cəmiyyətin polietnik olması hinduslarla müsəlmanlar arasında ölkənin parçalanmasına səbəb olan etnik-siyasi hadisələrlə bağlı olan "multimədəni cəmiyyət" prinsiplərində öz əksini tapmışdır. Rəsmi şəkildə isə multikulturalizmin əksər səndələrdə işlənməsi, dövlət siyasətinə çevrilməsi Kanada ilə bağlıdır. 1960-cı illərdən başlayaraq həmin ölkədə multikulturalizmin dövlət siyasəti kimi və dövlət siyasəti səviyyəsində həyata keçrilməsi ilə bağlı olaraq siyasi dairələrdə, siyasi sənədlərin, elmi ədəbiyyatların və mətbuatın əsas predmetinə çevrilməyə başlandı. Kanadada müəyyən müddət sonra multikulturalizm dövlət səviyyəsində qəbul edildi və bu siyasətin iki əsas məqamı var idi:

1. Özündə olduqca yüksək humanizm dəyərlərini ehtiva etdirən mədəni siyasət kimi özünü təsdiq etməsi.

* Ziya, Humanitar Fənlər və Regionşünaslıq Kafedrasının Müəllimi, Bakı Avrasiya Universiteti, _behmenli@mail.ru

DOI :10.30546/100981.1.2024.015

2. Müxtəlif xalqların tərkibində olduğu bir millətin və dövlətin bir və davamlı yüksəlişini nəzərdə tutan ideoloji qarant kimi tanındı.

"XX əsrin 60-70-ci illərində multikulturalizm Avropa və Şimali Amerika çağdaş etnik-siyasi münasibətlərin bir tələbi kimi adi termin çərçivəsindən çıxaraq əsl fəlsəfi-siyasi konsepsiyaya çevrilməyə başladı. Sözügedən dövrdə multikulturalizm təkcə ayrıca götürülmüş bir ölkənin etnik-mədəni, irqi və dini müxtəlifliklərinin mövcud vəziyyətini ifadə etmək üçün işlədilən adi termin deyildi. O, artıq cəmiyyətin təhlükəsiz gələcəyinə hesablanmış mədəni inqilab kimi təzahür edirdi". (Multikulturalizmə giriş, 2018: 12)

1. Multikulturalizm Siyasəti və Onun Mahiyyəti

Bir çox elmi ədəbiyyatlarda multikulturalizm siyasəti əsasən 1970-ci illərdən istifadə olunmuşdur. Elə həmin zamandan başlayaraq Avropada və Şimali Amerikada müasir etnik-siyasi münasibətlərin bir tələbi kimi adi termin səviyyəsindən çıxaraq siyasi və fəlsəfi konsepsiyaya çevrilməyə başladı. Qeyd etdiyimiz dövrdə bu termin ayrıca götürülmüş hər hansı bir dövlətin etnik-mədəni, irqi və dini müxtəlifliklərin mövcud vəziyyətini izah etmək üçün işlədilən sıradan bir termin deyildi. O, artıq demək olar ki, çoxmədəniyyətli cəmiyyətlərin təhlükəsiz gələcəyinə hesablanmış mədəni inqilab kimi təzahür edirdi. Kanadalı tədqiqatçı alim Vill Kimlika multikulturalizmlə bağlı araşıdırmaların 1980-cı illərin ortalarına qədər davam etdiyini iddia edir. Bu sahədə çalışan nəzəriyyəçilərin sayını barmaqla sayılacaq qədər az olduğunu qeyd etmişdir. Amma qeyd olunan zamandan azca keçməmiş bu mövzuda araşdırmaçıların sayı sürətlə artmağa başladı. Vill Kimlikanın qeydinə görə Qərb demokratiyalarında multikulturalizmin bir neçə növü vardır. Məqalədə onların bəzilərini nəzərdən keçirməyi məqsədəmüvafiq hesab edirik.

"1. Milli azlıqlar. Bu qrup iki yerə bölünür: daxili azlıqlar və yerli xalqlar. Daxili azlıqlar dövləti olmayan, lakin keçmişdə dövləti olmuş və ya onları yaratmağa çalışmış icmalardır. Yerli xalqlar ənənəvi olaraq torpaqlar yeni köçkünlər tərəfindən zəbt edilir və ya razılaşma yolu ilə götürürdülər.

2. "İmmiqrant qruplar"dır. İmmiqrantlar müəyyən şərtləri yerinə yetirməklə vətəndaşlıq hüququnun verilməsini ehtiva edən siyasətdir. ABŞ, Kanada və Avstraliya kimi ölkələrdən immiqrasiya nəticəsində bura köçmüş insanlar qrupuna daxildir. Onlara ümumiyyətlə sosial mədəniyyətə inteqrasiyanı qəbul etmiş insanlar kimi baxılır.

3. Bu qrupa "etno-dini qrupların təcrid edilməsi" daxildir. Bunlara vətəndaş cəmiyyətində iştirakdan qaçan insanlar nümunə olaraq yəhudilər göstərilir. Bu qruplar şüurlu şəkildə müxtəlif qanunlardan azad olmaq istəyirlər.

4. Qaçaqmalçılıq yolu ilə ölkəyə gələn insanlardır. Bu insanlar istənilən vaxt deportasiya olunmaq təhlükəsi ilə üzləşirlər. Lakin, hadisələr göstərir ki, bu insanlar yaşadıqları ölkələrdə qeyri-qanuni həyat sürürlər.

5. "Afrika-Amerikalılar" dır. Bu qrupdakı insanlar zorla ölkəyə qul kimi gətirilən hətta öz dillərini belə unutmuş, eyni zamanda mədəniyyət ocaqlarına inteqrasiyasına mane olan insanlardır" (Kymlicka, 2006: 483-508).

Onun bu yanaşması multikulturalizmi müəyyən cəhətdən izah etməyi aydın olur ki, bütün qeyd olunan qrupların mövcudluğu ilə Qərb demokratiyalarını güclü azlıq hüquqları birləşdirir. Onun fikrincə, multikulturalizmin liberal nəzəriyyəsi qarşı-qarşıya qoyduğu ən böyük işlərdən biri etnik-mədəni ədalətin şərtlərini anlamaq və ifadə etməkdir.

Müxtəlif mədəniyyətlərə malik olan insanlara cəmiyyətdə təsadüf etdiyi üçün multikulturalizmin birbaşa cəmiyyətlə bağlılığı mövcuddur. Ona görə də multikulturalizm sosial hadisə hesab olunur. Belə ki, sosial hadisə kimi formalaşan multikulturalizm digər sosial hadisələrə öz təsirini göstərir və onlarla sıx qarşılıqlı əlaqədə olur. Həm də multikulturalizm cəmiyyətlə bağlılığı sosial hadisə olması öz əhəmiyyətinə görə sosial ədalət,

imkanların eyni səviyyədə olması, demokratiya kimi anlayışların sırasına daxildir. Qeyd etdik ki, multikulturalizm sosial hadisədir. Onun sosial hadisə olması bir neçə faktorlarla bağlıdır:

"1.Eyni ərazidə uzun illərdən bəri müxtəlif xalqların birgə yaşamaları. Məsələn, Azərbaycanda müşahidə olunan çoxmədəniyyətlilik üçün bu səbəb səciyyəvidir. Məlum olduğu kimi, ölkəmizin ərazisində qədim dövrlərdən bəri müxtəlif xalqların nümayəndələri əmin-amanlıq şəraitində birgə yaşayırlar;

2. *Ölkənin coğrafi mövqeyi.* Söhbət müxtəlif mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu ərazilərdən gedir. Belə ərazilərdə yerləşən ölkələrin xalqları müxtəlif etnik, irqi, dini və mədəni qrupların nümayəndələri ilə qarşılaşaraq onlarla iqtisadi-ticarət və mədəni əlaqələrini inkişaf etdirmişlər. Bu isə öz növbəsində belə ərazilərdə multikultural mühitin formalaşması üçün əlverişli şərait yaratmışdır. Coğrafi faktor da Azərbaycanda müşahidə olunan çoxmədəniyyətlilik üçün səciyyəvidir. Məlum olduğu kimi, Azərbaycanın ərazisi müxtəlif sivilizasiyaların, mədəniyyətlərin və dinlərin kəsişməsində yerləşir. Buradan qədim İpək Yolu keçmiş, ölkəmizin bu əlverişli coğrafi mövqeyi onun etnik-mədəni müxtəlifliyə malik olan bir cəmiyyət kimi formalaşmasında və inkişafında müsbət rol oynamışdır;

3. *Sosial və iqtisadi səbəblərdən iqtisadi cəhətdən inkişaf etmiş ölkələrə xalqların axını.* Müasir dövrdə Qərb dövlətlərində müşahidə olunan çoxmədəniyyətliliyin əsas səbəbi *iqtisadi miqrasiya* hesab olunur. Lakin son dövrdə bu axının xarakteri əhəmiyyətli dərəcədə dəyişmişdir. Belə ki, Suriya, İraq, Əfqanıstan və digər Yaxın Şərq və Afrika ölkələrini bürümüş hərbi münaqişələr bu ölkələrdən inkişaf etmiş Avropa ölkələrinə insan axınını kütləvi və idarəolunmaz edərək, onu *siyasi miqrasiyaya* çevirmişdir;

4. İmperiyalar tərəfindən həyata keçirilən xalqların köçürülməsi siyasəti. Ermənilərin rus imperiyası tərəfindən Yaxın Şərqdən Cənubi Qafqaza köçürülməsi bu siyasətin bariz nümunəsidir;

5. *Hərbi münaqişələr nəticəsində xalqların yaşadıqları ölkələri tərk edərək başqa ölkələrə köçmələri.* Müasir dövrdə bir sıra Yaxın və Orta Şərq ölkələrində (Suriya, İraq, Əfqanıstan) davam edən hərbi münaqişələr burada yaşayan müxtəlif etnik və dini qrupların nümayəndələrinin Avropanın bir sıra ölkələrində sığınacaq axtarmalarına səbəb olmuşdur. Bu isə öz növbəsində qaçqınların pənah gətirdikləri dövlətlərdə etnik-mədəni müxtəlifliyin artması ilə müşayiət olunur". (Azərbaycan multikulturalizmi, 2017:19)

Multikulturalizm çox mədəniyyətli cəmiyyətin əsas faktoru kimi etnik, dini və mədəni müxtəlifliklərin tənzimlənməsinə istiqamətlənmiş siyasi forma olaraq etnik-mədəni dəyərləri qorumaqla həm də ölkə daxilində mövcud olan müxtəlif milli azlıqların dəyərlərini, milli xüsusiyyətlərinin bir-birinə qarşılıqlı şəkildə təsir etmələri üçün olduqca əlverişli zəmin yaradır və həmin millətlərin nümayənlərinin cəmiyyətə daha yaxşı və sürətli inteqrasiya olmaları üçün əlverişli imkanlar təklif edir.

Nəticə

Beləliklə, qeyd etdiklərimizdən belə bir nəticəyə gəlmək olar ki, çoxmədəniyyətli cəmiyyətin əsas faktoru kimi multikulturalizm eltnik-mədəni müxtəlifliklərin daha rahat idarə olunasında onlar arasında anlayışın formalaşdırmasında, həmin mədəniyyətlərə mənsub olan şəxslərin mədəniyyətlərini daha yaxşı inkişaf etdirilməsində əhəmiyyətli mövqeyə malikdir. Çünki, bu siyasi forma etnik və dini azlıqlara münasibətdə tolerantlıq nümayiş etdirməklə yanaşı, həm də həmin insanların mədəniyyətlərinə, adət-ənənələrinə, etnik-mədəni dəyərlərinə hörmətlə yanaşması özündə əks etdirir.

ƏDƏBİYYAT

Kymlicka, W. (2006) Çağdaş Siyaset Felsefesine Giriş, (Çev.: E. Kılıç Çev.). İstanbul: İstanbul Bilgi Üniversitesi Yayınları.

Azərbaycan Multikulturalizmi (2017). Bakı.

Multikulturalizmə Giriş (2018). Bakı.

Multikulturalizmə Giriş (2019). Bakı.